# “PAŞA Sığorta” ASC

## Maliyyə Hesabatları

*31 dekabr 2011-ci il tarixində başa çatan il*
*Müstəqil Auditorun Hesabatı ilə birlikdə*

Ernst & Young

Ernst & Young

# MÜNDƏRİCAT

**Müstəqil Auditorun Hesabatı**

Maliyyə vəziyyəti haqqında hesabat ... 1
Ümumi gəlir haqqında hesabat ... 2
Kapitalda dəyişikliklər haqqında hesabat ... 3
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat ... 4

## MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR

1. Əsas fəaliyyət ... 5
2. Hesabatların tərtibatının asası ... 5
3. Səhvlərin düzəldilməsi və yenidən təsnif etmələr ... 5
4. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı ... 8
5. Mühasibat uçotu siyasətində və açıqlamalarında dəyişikliklər ... 17
6. Mühüm mühasibat uçotu proqnozları, fərziyyələri və mühakimələri ... 21
7. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri ... 22
8. Kredit təşkilatlarından alınacaq məbləğlər ... 22
9. Sığorta əməliyyatları üzrə debitor borcları ... 22
10. Təxirə salınmış xərclər və gəlirlər ... 22
11. İcbari Sığorta Bürosunda depozitlər ... 23
12. Əmlak, avadanlıq və qeyri-maddi aktivlər ... 23
13. Digər aktivlər ... 24
14. Sığorta müqavilələri üzrə öhdəliklər ... 24
15. Sığorta əməliyyatları üzrə kreditor borcları ... 25
16. Vergilər ... 25
17. Digər öhdəliklər ... 26
18. Səhmdar kapitalında artıq üçün ehtiyat ... 27
19. Səhmdar kapitalı ... 27
20. Təəhhüdlər və potensial öhdəliklər ... 27
21. Sığorta fəaliyyətinin nəticələrinin, o cümlədən əməliyyat seqmentləri üzrə sığorta haqqı və hadisələri xərclərinin təhlili ... 29
22. Haqq və komissiya gəliri / (xərcləri), xalis ... 31
23. İşçilərin mükafatlandırılması xərcləri ... 31
24. Digər əməliyyat və inzibati xərclər ... 31
25. Əlaqəli tərəflərlə əməliyyatlar ... 32
26. Risklərin idarə olunması ... 33
27. Maliyyə alətlərinin ədalətli dəyəri ... 42
28. Aktivlərin və öhdəliklərin müddətlər üzrə təhlili ... 43
29. Hesabat tarixindən sonar baş vermiş hadisələr ... 44

ERNST & YOUNG

Ernst & Young Holdings (CIS) B.V.
Hyatt International Center
Hyatt Tower III, 1st Floor
Izmir Street, 1033
Baku, AZ1065, Azerbaijan
Tel: +994 (12) 490 7020
Fax: +994 (12) 490 7017
www.ey.com/Azerbaijan

Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Hyatt Internaşnl Senter
Hyatt Tauer III, 1-ci Mərtəbə
İzmir küçəsi, 1033
Bakı, AZ1065, Azərbaycan
Tel: +994 (12) 490 7020
Faks: +994 (12) 490 7017

## "PAŞA Sığorta" ASC-nin səhmdarına və İdarə Heyətinə Müstəqil Auditorun Hesabatı:

Biz "PAŞA Sığorta" ASC-nin 31 dekabr 2011-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə ümumi gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsipləri və digər izahedici qeydlərin icmalından ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

***Maliyyə hesabatları üçün rəhbərliyin məsuliyyəti***

Rəhbərlik hazırkı maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin lazım bildiyi daxili nəzarət üzrə məsuliyyət daşıyır.

***Auditorun məsuliyyəti***

Bizim vəzifəmiz apardığımız audit əsasında həmin maliyyə hesabatları üzrə rəy ifadə etməkdir. Biz auditi beynəlxalq audit standartlarına uyğun olaraq aparmışıq. Bu standartlar bizdən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mühakiməsindən, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarında əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsindən asılıdır. Bu risklər qiymətləndirilərkən auditor müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisənin maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsinə aid olan daxili nəzarət elementlərini nəzərə alır, lakin bu zaman müəssisənin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmür. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin münasibliyinin və rəhbərlik tərəfindən edilmiş ehtimalların məntiqiliyinin qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

***Rəy***

Bizim fikrimizcə, maliyyə hesabatları 31 dekabr 2011-ci il tarixinə "PAŞA Sığorta" ASC-nin maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

Ernst & Young Holdings (CIS) B.V.

30 aprel 2012-ci il

A member firm of Ernst & Young Global Limited

# MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 dekabr 2011-ci il

| | Qeydlər | 2011 | 2010 Yenidən hesablanmış (Qeyd 2) | 2009 Yenidən hesablanmış (Qeyd 2) |
|---|---|---|---|---|
| **Aktivlər** | | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 7 | 1,238 | 534 | 751 |
| Kredit təşkilatlarından alınacaq məbləğlər | 8 | 37,085 | 26,023 | 14,310 |
| Sığorta əməliyyatları üzrə debitor borcları | 9 | 407 | 1,351 | 1,132 |
| Təxirə salınmış xərclər | 10 | 295 | 331 | 276 |
| Təkrarsığorta aktivləri | 14 | 7,169 | 10,675 | 2,854 |
| İcbari Sığorta Bürosunda depozitlər | 11 | 400 | - | - |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 12 | 635 | 295 | 312 |
| Digər aktivlər | 13 | 767 | 447 | 124 |
| **Cəmi aktivlər** | | **47,996** | **39,656** | **19,759** |
| **Öhdəliklər** | | | | |
| Sığorta müqavilələri üzrə öhdəliklər | 14 | 11,363 | 14,894 | 6,037 |
| Sığorta əməliyyatları üzrə kreditor borcları | 15 | 81 | 941 | 854 |
| Səhmdara borc | 25 | 500 | - | - |
| Təxirə salınmış gəlir | 10 | 378 | 574 | 173 |
| Təxirə salınmış vergi öhdəliyi | 16 | 100 | 250 | 160 |
| Digər öhdəliklər | 17 | 521 | 773 | 405 |
| Səhmdar kapitalında artım üçün ehtiyat | 18 | 434 | - | - |
| **Cəmi öhdəliklər** | | **13,377** | **17,432** | **7,629** |
| **Kapital** | | | | |
| Səhmdar kapitalı | 19 | 30,000 | 20,000 | 9,000 |
| Bölüşdürülməmiş mənfəət | | 4,619 | 2,224 | 3,130 |
| **Cəmi kapital** | | **34,619** | **22,224** | **12,130** |
| **Cəmi öhdəliklər və kapital** | | **47,996** | **39,656** | **19,759** |

**Maliyyə hesabatlarını İdarə Heyətinin adından imzalayan və buraxılmasına icazə verənlər:**

Nofəl Rzayev
İdarə Heyətinin sədri

Zaur Əliyev
Baş Maliyyə və İnzibati Direktor

**30 aprel 2012-ci il**

*5 - 45 səhifələrdə əlavə edilən qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir.*

# ÜMUMİ GƏLİR HAQQINDA HESABAT
## 31 dekabr 2011-ci il tarixində başa çatan il üzrə

| | Qeydlər | 2011 | 2010 Yenidən hesablanmış (Qeyd 2) |
|---|---|---|---|
| Ümumi sığorta haqları | 21 | 13,804 | 20,288 |
| Təkrarsığortaçılara ötürülmüş sığorta haqları | 21 | (8,507) | (14,513) |
| **Xalis sığorta haqları** | | **5,297** | **5,775** |
| Qazanılmamış sığorta haqları ehtiyatında dəyişiklik, təkrarsığorta çıxılmaqla | 21 | 125 | (619) |
| **Qazanılmış sığorta haqları, təkrarsığorta çıxılmaqla** | 21 | **5,422** | **5,156** |
| **Sığorta hadisələri üzrə xərclər, təkrarsığorta çıxılmaqla** | 21 | **(2,232)** | **(2,782)** |
| Haqq və komissiya gəlirləri / (xərcləri), xalis | 21, 22 | 210 | (253) |
| Marketinq və reklam xərcləri | | (409) | (272) |
| İşçilərin mükafatlandırılması xərcləri | 23 | (2,109) | (1,723) |
| Digər əməliyyat və inzibati xərclər | 24 | (978) | (656) |
| Köhnəlmə və amortizasiya xərcləri | 12 | (123) | (101) |
| Faiz gəliri | | 3,654 | 2,825 |
| Digər gəlir | | 56 | 114 |
| Xarici valyutadan zərər, xalis | | (10) | (19) |
| **Mənfəət vergisi xərcindən əvvəl mənfəət** | | **3,481** | **2,289** |
| Mənfəət vergisi gəliri / (xərci) | 16 | 293 | (233) |
| **İl üzrə mənfəət** | | **3,774** | **2,056** |
| Digər ümumi gəlir | | - | - |
| **İl üzrə cəmi ümumi gəlir** | | **3,774** | **2,056** |

*5 - 44 səhifələrdə əlavə edilən qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir.*

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 dekabr 2011-ci il tarixində başa çatan il üzrə

| | Qeydlər | Səhmdar kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2009-cu il (yenidən hesablanmış)** | | **9,000** | **3,130** | **12,145** |
| Səhmdar kapitalına köçürmə | 19 | 2,809 | (2,809) | - |
| Mənfəətin kapitallaşdırılması üzrə vergi (yenidən hesablanmış) | 2, 18 | - | (153) | (153) |
| Səhmdar kapitalının emissiyası | 19 | 8,191 | - | 8,191 |
| İl üzrə cəmi ümumi gəlir (yenidən hesablanmış) | | - | 2,056 | 2,056 |
| **31 dekabr 2010-cu il (yenidən hesablanmış)** | | **20,000** | **2,224** | **22,224** |
| Səhmdar kapitalına köçürmə | 19 | 1,098 | (1,098) | - |
| Mənfəətin kapitallaşdırılması üzrə vergi | 13, 18 | - | (281) | (281) |
| Səhmdar kapitalının emissiyası | 19 | 8,902 | - | 8,902 |
| İl üzrə cəmi ümumi gəlir | | - | 3,774 | 3,774 |
| **31 dekabr 2011-ci il** | | **30,000** | **4,619** | **34,619** |

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 dekabr 2011-ci il tarixində başa çatan il üzrə

| | Qeydlər | 2011 | 2010 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Yığılmış sığorta haqqı | | 10,529 | 12,185 |
| Ödənilmiş təkrarsığorta haqqı | | (5,229) | (6,168) |
| Sığorta hadisələri üzrə verilmiş ödənişlər | | (2,181) | (2,474) |
| Sığorta hadisələri üzrə alınmış ödənişlər, təkrarsığortaçıların payı | | 66 | 69 |
| Ödənilmiş haqq və komissiya | | (426) | (673) |
| Alınmış haqq və komissiya | | 528 | 269 |
| Ödənilmiş marketinq və reklam xərcləri | | (405) | (271) |
| İşçilərə ödənilmiş müavinətlər | | (2,022) | (1,554) |
| Ödənilmiş digər əməliyyat və inzibati xərclər | | (519) | (398) |
| Alınmış digər gəlir | | 26 | 34 |
| Xarici valyuta ilə əməliyyatlardan xalis realizasiya olunmuş zərərlər | | (9) | (7) |
| İcbari Sığorta Bürosunda depozitlərin yerləşdirilməsi | 11 | (400) | - |
| **Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyəti üzrə (istifadə edilən) / əldə edilən xalis pul vəsaitləri** | | **(42)** | **1,012** |
| Ödənilmiş mənfəət vergisi | 16 | (143) | - |
| **Əməliyyat fəaliyyəti üzrə (istifadə edilən) / əldə edilən xalis pul vəsaitləri** | | **(185)** | **1,012** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Alınmış faiz gəlirləri | | 3,156 | 1,896 |
| Kredit təşkilatlarında yerləşdirilmiş məbləğlər | | (23,200) | (21,200) |
| Kredit təşkilatları tərəfindən geri ödənilmiş məbləğlər | | 12,150 | 10,250 |
| Əmlak, avadanlıq və qeyi-maddi aktivlərin alınması | | (499) | (113) |
| Əmlak, avadanlıq və qeyi-maddi aktivlərin satılmasından gəlirlər | 12 | 34 | 29 |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | | **(8,359)** | **(9,138)** |
| **Maliyyələşdirmə fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Səhmdar kapitalının emissiyasından gəlirlər | 19 | 8,902 | 8,191 |
| Mənfəətin kapitallaşdırılması üzrə ödənilmiş vergilər | 13, 18 | (153) | (281) |
| Səhmdardan alınmış qısamüddətli maliyyələşdirmə | 25 | 500 | - |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə əldə edilən xalis pul vəsaitləri** | | **9,249** | **7,910** |
| Pul vəsaitləri və pul vəsaitləri ekvivalentlərinə valyuta məzənnələrinin dəyişməsinin təsiri | | (1) | (1) |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artma /(azalma)** | | **704** | **(217)** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ilin əvvəlinə** | 12 | **534** | **751** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ilin sonuna** | 12 | **1,238** | **534** |

Şirkətin yerinə yetirdiyi qeyri-nağd əməliyyatlar aşağıdakılardan ibarətdir:

| | Qeydlər | 2011 | 2010 |
|---|---|---|---|
| Mənfəətin kapitallaşdırılması | 19 | 1,098 | 2,809 |
| Frontinq müqavilələri üzrə ümumi sığorta haqları və təkrarsığortaçılara ötürülmüş sığorta haqları | 20 | 3,820 | 7,705 |
| Ödəmə mənbəyində tutulan vergi | 24 | 365 | 257 |